# Kitabların hikmət dünyası




**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi çərçivəsində Daşkənddə özbək dilində "Vətən üçün can fəda edən qəhrəmanlar" adlı kitab işıq üzü görüb.**

Tədqiqatçı-jurnalist Mövlan Şükürzadənin qələmə aldığı kitab Birinci Qarabağ savaşında Azərbaycan torpaqlarının bütövlüyü uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalmış Milli Qəhrəman İsgəndər Aznaurovdan bəhs edir. "Ön söz"ün müəllifi Özbəkistandakı Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasovdur.

Əslən Axıska türklərindən olan, qədim Buxara şəhərində dünyaya göz açmış, ömrünün böyük bir hissəsini orada yaşayan İskəndər Aznaurov qədim köklərə malik 3 qardaş xalqın – axıska, özbək və Azərbaycan xalqlarının ortaq qəhrəman övladı kimi xarakterizə olunur. O, Azərbaycanın Gədəbəy rayonunda erməni işğalçıları ilə gedən döyüşlər zamanı, işğal altında olan bir çox yurd yerlərimizin azad edilməsində xüsusi şücaət və igidlik göstərib.

***

**Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda şair, Prezident təqaüdçüsü Xatirə Fərəclinin rus dilinə tərcümə olunmuş "Qış ağacları" adlı şeirlər toplusunun təqdimatı keçirilib.**




"Dünyada biz" layihəsi əsasında ərsəyə gəlmiş kitabı rus dilinə Giya Paçxataşvili, Fəxrəddin Qəribsəs, Serqey Televnoy və Vaqif Rəsul çeviriblər.

Tədbirdə qeyd edilib ki, AYB Sumqayıt Bölməsinin məsləhətçisi, "Zərif" Ədəbi Qadınlar Birliyinin rəhbəri olan Xatirə Fərəcli sözün əsl mənasında zərif duyğular tərcümanıdır. Elə şeirlərinin tərcüməsində də bu ruh əsasən qorunub saxlanıb.

Mərasimdə təqdim edilən topludan nümunələr səsləndirilib. Sonda Xatirə Fərəcli çıxış edərək, haqqında söylənilənlərə və şeirlərinin uğurlu tərcüməsinə görə minnətdarlığını bildirib. O, rəhbərlik etdiyi "Mədəni İnkişafın Təbliği" İctimai Birliyinnin "Dünyada biz" layihəsi çərçivəsində çağdaş Azərbaycan ədəbiyyatı nümayəndələrinin şeirlərindən ibarət almanax tərtib etdiyini də söyləyib.

***

**İstedadlı rəssam və yazıçı Zahir Məliklinin yeni çapdan çıxmış sayca 4-cü kitabı "Torpağı Vətən edənlər (şəhidlik zirvəsinin Yardımlı fatehləri)" adlanır.**




Nəfis tərtibatla buraxılmış kitabın şəhid valideynləri və rayon ictimaiyyətinin iştirakı ilə təqdimat mərasimi olub. Tibb elmləri üzrə fəlsəfə doktoru, tibb xidməti polkovniki, yazar Ramiz Əkbər, filologiya üzrə fəlsəfə doktoru, Azərbaycan Texniki Universitetinin kafedra müdiri Həbib Mirzəyev, filologiya üzrə fəlsəfə doktoru, ADPU-nun Cəlilabad filialının müəllimi Bilal Hüseynli və başqaları çıxış edərək kitabı Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş igidlərimizin ruhuna ehtiram nümunəsi kimi dəyərləndiriblər.

Sonda şəhid ailələrinin üzvlərinə kitabın nüsxələri hədiyyə edilib.

***Ə.ƏLİYEV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2023.- 31 avqust.- S.11.